# “Neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq üçün vasitədir”

***Mən Prezident seçiləndən sonra demişdim, ilk bəyanatlardan biri idi ki, “qara qızıl”ı insan kapitalına çevirməliyik, insanlara xidmət etməliyik. Biz bu sahədə, ilk növbədə, insan amilini nəzərə almalıyıq. Çünki neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq, daha yaxşı şərait yaratmaq üçün vasitədir və bunu edirik.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Sentyabrın 19-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda “Abşeron” yatağının dəniz əməliyyatlarının təməli qoyulub. Bu münasibətlə keçirilən mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib. Mərasimdə dövlətimizin başçısına yataqda quraşdırılacaq dayaq blokları və digər sualtı qurğular barədə ətraflı məlumat verilib. Bildirilib ki, “Abşeron” yatağında quraşdırılacaq dörd əsas dayaq bloku və digər sualtı qurğular SOCAR-ın “BOS Şelf” şirkəti tərəfindən tikilib. İnşaat əməliyyatları zamanı ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq blokları, körpülər, estakadalar, məşəl sistemi, sualtı qurğular, boru xətti, modullar tikilib və quraşdırılıb.***



“Abşeron” layihəsi üzərində iş zamanı “BOS Şelf” şirkəti Azərbaycanda ilk dəfə bütün mühəndislik, təchizat, tikinti, quraşdırma işlərini həyata keçirməklə layihənin tam təminatla təhvil verilməsi üsulunu tətbiq edib. Yataqdan qazın hasilatı üçün öz növünə görə nadir olan platformanın quraşdırılması planlaşdırılıb. Həmin platformanı kənardan, yəni “Neft Daşları”nda yerləşdirilən moduldan idarə etmək üçün innovativ həll yolları işlənilib hazırlanıb. “Abşeron” layihəsində Xəzərdə ilk dəfə “boru içində boru” texnologiyası tətbiq olunacağı da nəzərdə tutulub.

Mərasimdə Xəzərin Azərbaycan sektorunda suyun 500 metr dərinliyində yerləşən “Abşeron” yatağının ehtiyatlarının 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirildiyi bildirilib. Bundan başqa, yatağın istismarı nəticəsində Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin ediləcəyi də diqqətə çatdırılıb.

Prezident İlham Əliyev təməlqoyma mərasimindən sonra Azərbaycan televiziyalarına müsahibəsində sözügedən layihənin tarixini, eyni zamanda, əhəmiyyətini yüksək qiymətləndirib: “Abşeron” yatağının tarixi bir qədər fərqlidir. Çünki ilk dəfə “Abşeron” qaz yatağı üzrə kontrakt xarici tərəfdaşlarla hələ 1990-cı illərin sonlarında imzalanmışdır. Mən o günləri yaxşı xatırlayıram və bizim “Abşeron” yatağı ilə əlaqədar böyük ümidlərimiz var idi. Çünki bizim geoloqlarımız, xüsusilə Xoşbəxt Yusifzadə tam əmin idi ki, bu yataqda kifayət qədər böyük qaz ehtiyatları vardır. Bir də ki, “Abşeron” yatağı üzrə kontrakt “Şahdəniz” qaz-kondensat yatağı üzrə kontraktdan sonra imzalanmışdır və əslində, bu, onu göstərirdi ki, Azərbaycan artıq neft ölkəsindən qaz ölkəsinə keçid alır”.

“Abşeron” yatağı ilə bağlı bir məqamı da xatırlatmaq istərdik. Belə ki, “Əsrin müqaviləsi”nin imzalanmasından ötən müddətdə ölkə iqtisadiyyatının, xüsusən sənayenin, o cümlədən, neft sektorunun şaxələndirilməsi, beynəlxalq standartlara uyğun yenidən qurulması, innovativ texnologiyalarla təchiz olunması, yeni idarəçilik metodlarının mənimsənilməsi üçün geniş imkanlar yaranıb. Xarici neft şirkətləri ilə birlikdə axtarış-kəşfiyyat, qazma, tikinti və hasilat üzrə böyük iş həcmi reallaşdırılıb və uğurlu nəticələr alınıb. Bir sıra yataqlar aşkarlanıb, eyni zamanda, “Abşeron” yatağının işlənilməsinə başlanılıb.

“Əsrin müqaviləsi”nin icrasına başlanılan vaxtdan etibarən müxtəlif ölkələrin aparıcı şirkətləri də Azərbaycanla əməkdaşlığı uğurla davam etdiriblər. Ötən il TOTAL şirkəti ilə əməkdaşlıq çərçivəsində “Abşeron” yatağında əsas quyunun qazılması başa çatdırılıb. İki gövdədən ibarət olan quyunun birincisi “Abşeron” yatağının potensialının qiymətləndirilməsi üçün nəzərdə tutulub. Dərinliyi 7411 metr olan birinci gövdə SOCAR-ın Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə qazılıb. Dərinliyi 6,8 min metr olan ikinci gövdənin qazma işləri isə ötən ilin oktyabrında başa çatdırılıb.

Prezident İlham Əliyev müsahibəsində daha sonra “Abşeron” yatağının istismarı ilə bağlı imzalanmış birinci müqavilə barədə deyib: “Əfsuslar olsun ki, müəyyən müddətdən sonra birinci kontrakta xitam verildi. Onun da səbəbi ondan ibarət idi ki, qazılan kəşfiyyat quyusu boş çıxdı. Xatırlayıram, o vaxt bizim görkəmli geoloqumuz Xoşbəxt Yusifzadə demişdi ki, quyunun yeri düzgün seçilməmişdir və xarici tərəfdaşları inandırmağa çalışırdı ki, onlar öz iş proqramına bir qədər düzəlişlər etsinlər. Ancaq əfsuslar olsun ki, onun sözünə baxmadılar. Halbuki, Xəzər dənizini Xoşbəxt Yusifzadə kimi tanıyan ikinci adam dünyada yoxdur. Ancaq heç bir nəticə əldə olunmadı və xarici şirkət bu yatağı tərk etdi. Yenə də deyirəm, biz tam əmin idik ki, burada çox böyük qaz ehtiyatları vardır. Şadam ki, “Total” şirkəti eyni fikrə gəldi və SOCAR-la müvafiq sənədlər imzalandı. Ondan sonra praktiki işlər aparıldı və böyük qaz-kondensat yatağı aşkarlandı”.

Dövlətimizin başçısı müsahibəsində “Abşeron” yatağında böyük qaz-kondensat ehtiyatlarının aşkarlandığını, o cümlədən, 350-360 milyard kubmetr qaz ehtiyatlarının mövcudluğunu da diqqətə çatdırıb. Eyni zamanda, Azərbaycanın bundan sonra da etibarlı qaz təchizatçısı olacağını, “Abşeron”un birinci mərhələsində çıxarılacaq qazın daxili tələbata istiqamətləndiriləcəyini, sonrakı mərhələdə isə hasil olunacaq qazın ixrac yolu ilə dünya bazarlarına çıxarılacağını vurğulayıb.

Müsahibədə Azərbaycanın neft hasilatının sabit qalması üçün bu yatağın böyük önəm daşıdığı da xatırladılıb: “Çünki 100 milyon ton kondensat – bu da Bakı–Tbilisi–Ceyhan ixrac boru xətti ilə dünya bazarlarına çıxarılacaq. Beləliklə, “Azəri–Çıraq–Günəşli”də mövcud olan və davam edən təbii hasilat tənəzzülünü “Abşeron” yatağı bir qədər kompensasiya edəcək”.

Prezident İlham Əliyev müxbirin müxtəlif dövrlərdə Azərbaycanda hasil olunan neftin rolunun qiymətləndirilməsi ilə bağlı sualını cavablandırarkən, çar Rusiyası zamanı ölkəmizdə çıxarılan “qara qızıl”ın xalqın maraqlarına xidmət etmədiyini qeyd edib: “Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi. Ancaq biz müstəqil deyildik. Düzdür, o vaxt zəngin neft maqnatları, onlar əldə etdikləri gəlirlərin bir hissəsini xeyriyyəçiliyə sərf edirdilər, xüsusilə Hacı Zeynalabdin Tağıyev, Muxtarov, Əsədullayev…”

Dövlətimizin başçısı müsahibəsində Hacı Zeynalabdin Tağıyevin Bakıya Şollar su kəmərini çəkdirdiyini, eyni zamanda, Azərbaycan gənclərinin təhsildən kənarda qalmamaları üçün oxumalarına böyük əhəmiyyət verdiyini xatırladaraq, deyib: “Bizim ailəyə də onun köməyi dəymişdir. Mənim babam Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində kasıb ailədə doğulmuşdu və oxumaq istəyirdi. Ancaq oxumaq üçün pulu yox idi. O vaxt o, Hacı Zeynalabdin Tağıyevə məktub ünvanlamışdı və xahiş etmişdi ki, ona maddi kömək göstərsin. O, həkim olmaq istəyirdi. Təbii ki, Tağıyev onu tanımırdı, ancaq bir vətənpərvər, xeyirxah insan kimi ona pul göndərdi və o pul hesabına Əziz Əliyev Sankt-Peterburq Hərbi Tibb Akademiyasına daxil oldu, orada oxudu, gözəl həkim, görkəmli dövlət xadimi oldu…”.

Prezident İlham Əliyev daha sonra o zaman zəngin neft maqnatları arasında ermənilərin də kifayət qədər çox olduğunu, ancaq onlar tərəfindən qazanılan pulların bir çox hallarda Azərbaycan xalqının maraqlarına zidd işlərə yönəldildiyi vurğulanıb.

Dövlətimizin başçısı sovet dövründə də Azərbaycan neftinin yenə də xalqın güzəranını yaxşılaşdırmadığını, xüsusilə müharibə illərində neft mədənlərində işləyən insanların çox ağır şəraitdə yaşadıqlarını, gecə-gündüz çalışdıqlarını bildirib: “Bir rəqəmi gətirə bilərəm ki, müharibə zamanı Azərbaycanda rekord səviyyədə neft hasil edilmişdir – 23 milyon ton. Yəni, cəmi bir-iki il ərzində neft hasilatı təqribən iki dəfədən çox artırıldı. O vaxt müasir texnologiyalar yox idi, bu artım daha çox insan əməyinin istismarı nəticəsində baş verirdi. Deyə bilərəm ki, bizim ailədə də bu, öz təsirini göstərdi. Çünki mənim digər babam Əlirza Əliyev pul qazanmaq üçün Naxçıvandan Bakıya gəlirdi və aylarla neft mədənlərində işləyirdi. Bu, onun səhhətinə çox mənfi təsir göstərmişdi və məhz buna görə gənc yaşlarında vəfat etdi”.

Prezident İlham Əliyev müsahibəsində yuxarıda qeyd edilənlərlə bərabər, ikinci Dünya müharibəsində sovet ordusunun qələbəsində Azərbaycan neftçilərinin xüsusi, müstəsna əməyi olduğunu, o vaxt Sovet İttifaqında yanacağın 80 faizinin, sürtkü yağlarının 90 faizinin ölkəmiz tərəfindən təmin edildiyini də xatırladıb. Dövlətimizin başçısı həmin müharibədə 300 mindən çox azərbaycanlının həlak olduğunu, Sovet İttifaqı dağılanda isə artıq sıradan çıxmaqda olan neft infrastrukturunun nəzərə çarpdığını da xüsusi vurğulayıb.

Prezident İlham Əliyev müsahibəsində müstəqillik dövründə Azərbaycan neftinin respublikamızın sosial-iqtisadi sahələrinin inkişafında əhəmiyyətli rol oynamasından da ətraflı bəhs edib: “Bu gün Azərbaycan nefti tam şəkildə Azərbaycan xalqının maraqlarına xidmət edir və nəinki nəhəng neft-qaz layihələri, bütün başqa sahələr də. İndi Azərbaycan bütün reytinqlərdə ön qabaqcıl yerlərdədir. Azərbaycanda aparılan infrastruktur siyasəti, sırf infrastruktur layihələrinin icrası nümunə kimi göstərilir. Sovet vaxtında bizim dağ rayonlarımızda qaz xətləri yox idi. Daşkəsən, Gədəbəy, Lerikə ilk qaz xətlərini biz çəkdirdik. O vaxt Azərbaycan qazı başqa respublikalara nəql edilirdi, ancaq respublikanın bəzi yerlərində qaz yox idi. İndi qazlaşdırma 96 faizdir…”.

Bəli, müstəqillik dövründə, xüsusilə son 17 ildə neftdən gələn gəlirlər hesabına Azərbaycanda nəhəng infrastruktur layihələri reallaşdırılıb. Məhz elə bunun nəticəsidir ki, Davos Forumu avianəqliyyat, dəmir yolu nəqliyyatı sahələrində Azərbaycanı 11–12-ci yerlərə layiq görüb. Ölkəmiz yol infrastrukturunun keyfiyyətinə görə dünyada 27-ci yerdə qərarlaşıb. Müstəqillik dövründə 3700 məktəb, 700-dən çox xəstəxana tikilib, yaxud təmir olunub və ən müasir avadanlıqla təchiz edilib. Azərbaycan kosmik dövlətə çevrilib, idman sahəsində, Olimpiya Oyunlarında böyük nailiyyətlər qazanılıb.

Dövlətimizin başçısı daha sonra deyib: “Biz neft gəlirlərini çox səmərəli yollarla yerləşdirmişik, onları qoruyuruq və ordumuzu gücləndiririk. Ona görə müstəqilliyin üstünlükləri göz qabağındadır. Əgər kimsə hansısa nostalgiyaya görə keçmiş dövrləri məhəbbətlə xatırlayırsa, biz o adamlara tutarlı cavablar verməliyik. Müstəqilliyə qarşı çıxan və onu aşağılamağa çalışan hər bir fərd dövlətimizə xəyanət edir. Müstəqillik bizim əsas dəyərimizdir və biz nə qədər güclü olsaq, nə qədər qüdrətli olsaq, müstəqilliyimiz o qədər də möhkəm olacaqdır”.

Prezident İlham Əliyev müsahibəsində neft hasilatı nəticəsində yaranan ciddi ekoloji problemlərin həlli istiqamətində reallaşdırılan tədbirlər barədə, eyni zamanda, ölkəmizin neft-qaz sektorunda həyata keçirilən layihələrin icra vəziyyəti haqqında da ətraflı bəhs edib.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***